# Azərbaycan gözəl və səvətli bir ölkədir

Azərbaycan ərazisinin təbiətcə gözəl və eyni zamanda həyat üçün müvafiq olması burada yaşayışın çox qədimdən başlanmasına səbəb olmuş və bizim əcdadımızın diqqətini (təvəccöhünü) cəlb etmişdir. Azərbaycan təbii və coğrafi mövqeyinə görə yer kürəsinin ən gözəl və zəngin hissələrindən birini təşkil edir. Ərazisinin müxtəlifliyi iqlim şəraitinin müxtəlif olmasına səbəb olmuşdur.

Burada əkinçilik, bağçılıq üçün geniş düzlər olduğu kimi heyvandarlıq üçün gözəl çəmənlər, gözəl zəmilər, sitrus bitkiləri və sair meyvələr üçün subtropik iqlim şəraiti vardır. Azərbaycan çox qədim zamanlardan böyük və parlaq bir mədəniyyət ocağı kimi tanınmışdır. Ağsaçlı qocaman dağları, yaşıl meşələri, sərin bulaqları, sarmaşıq kimi ölkənin hər tərəfini dolaşan çayları zəngin bir təbiət yaratmışdır.

Dağlarında dəmir, mis, alüminium, gümüş, qızıl bəsləyib saxlayan Azərbaycan yanar qazlar və "qara qızıl" adlanan neft vətənidir. Burada müxtəlif növlü heyvanlar, dünyada çox nadir tapılan quşlar mövcuddur. Meşələrində və çöllərində gözəl quşları, dəniz və çaylarında müxtəlif cinsli balıqları, çəmənlərində şəfa verən gözəl çiçəkləri insanı valeh edir.

Buna görə də Azərbaycanı Misir kimi qədim və təbiətcə gözəl ölkələr ilə müqayisə etdikdə şübhə yoxdur ki, heç səhv etmərik. Odlar ölkəsi adlanan bu gözəl Azərbaycan torpaqlarında babalarımız çox qədim zamanlardan bəri yaşamaqdadırlar. Bu əziz torpaq haqqında unudulmaz tarixi xatirələr var.

Azərbaycan ərazisi eyni zamanda cənub ölkələri ilə şimal ölkələri arasında aparılan iqtisadi, siyasi münasibətlər mərkəzi olmaq etibarilə çox əhəmiyyətli olmuşdur. Bu mövqe, ölkənin müxtəlif və gözəl təbii şəraiti Azərbaycan xalqının tarixini daha da zənginləşdirmişdir və mədəniyyət yaradan xalqlar arasında bizim millətimiz üçün çox ali bir məqam kəsb (icad) etmişdir.

## Böyük əcdadlarımız Midiyalılar

Tarixi və elmi tədqiqat göstərir ki, Azərbaycan xalqı tarix etibarilə çox qədim olub, zəngin və qəhrəman bir keçmişə malikdir.

Təbiətcə çox zəngin olan bu gözəl torpaqlarda yaşayan babalarımız mədəni insanların keçirdiyi tarixi mərhələləri keçmişlər. Xüsusən Sovet Azərbaycanında aparılan qazıntı işləri sübut edir ki, dörd min il bundan əvvəl bu torpaqlarda yaşayan qədim Azərbaycan tayfaları maldarlıq, əkinçilik, saxsı qablar qayırmaq, habelə istehkamlar çəkmək işini yaxşı bilirmişlər.

Miladdan doqquz əsr əvvəl qədim Assuriya mixi yazılarında göstərilir ki, Azərbaycanda yaşayan tayfalar içərisində ən qüvvətlisi indiki azərbaycanlıların babaları olan midiyalılar (madlar) olmuşdur. Tarix səhifələrində böyük rol oynamış qədim babalarımız midiyalılar, miladi tarixindən 8 əsr əvvəl şimal-qərb tərəfdən Urartu (Van) dövləti, qərb tərəfdən Assuriya dövləti ilə həmsərhəd idi. Midiyanın şərq tərəfində isə pars tayfası yaşayırdı. Bu zaman parslar midiyalılara nisbətən yaşayış və mədəniyyətcə geridə idilər.

Midiyalıların mədəniyyəti isə bu zaman Assur, Babil mədəniyyəti səviyyəsində idi. Lakin Midiya ölkəsi Assuriya padşahları tərəfindən işğal edilmiş və Midiyalılar isə xərac verməyə məcbur edilmişdilər.

*(Davamı var)*

***Firidun İBRAHİMİ***